UOT 78
https://doi.org/10.59849/2311-8482.2024.2.205

**AYTƏN MƏHƏRRƏMOVA***

# QAVAL İFAÇILIQ SƏNƏTİNDƏ USTAD SƏNƏTKARLARIN ROLU

*Məqalədə qaval ifaçılıq sənətinin səmərəli inkişafında ustad sənətkarların rolundan danışılır. Burada həmçinin qaval alətinin peşəkar ifaçılarından da söz açılaraq onların muğam sənətində verdiyi töhfələrdən də bəhs edilir.*

***Açar sözlər**: Qaval, dəf, Qaval rəqsi, xanəndə, sənət, Xan Şuşinski, Alim Qasımov, Əzizağa Nəcəfzadə, Mahmud Salah*

**Giriş**

Qaval ifaçılıq sənəti elə bir sənətdir ki, burada həm təcrübə, həm də istedad, yaradıcılıq qabiliyyəti bir-biri ilə qarşılıqlı vəhdətdə olmağı bacarmalıdır. Məlumdur ki, qaval alətini ilk dəfə xalq çalğı alətləri orkestrinə dahi bəstəkar, alim, pedaqoq Ü.Hacıbəyli daxil edərək not prtiyasını belə özü yazmışdır. Bu fakt bir daha onu sübut edir ki, qaval aləti muğam (xanəndəlik) sənətində olduqca mühüm və əhəmiyyətli yer tutur. Məhz buna görə də, bir çox xanəndələr həm də mahir qaval ifaçıları kimi özlərini yetişdirərək sənət dostlarını təəccübləndirməyi, hətta onlara istiqamət belə verməyi bacarmışdırlar.

**Əsas təhlil**

Tədasüfi deyil ki, Hacı Hüsü, Cabbar Qaryağdıoğlu, Keçəçioğlu Məhəmməd, Məşədi Məmməd Fərzəliyev, İslam Abdullayev, Seyid Şuşinski, xüsusilə Xan Şuşinski, Alim Qalımov muğam sənətində həm də mahir qaval ifaçıları kimi də tanınırlar.

Məsələn, Xan Şuşinskinin qaval çalma qabiliyyəti onun gözəl ritm duyumundan xəbər verərək heç də ustad xanəndənin eşitmə bacarığından, gözəl səsindən geri qalmır. Xan Şuşinski xalq mahnılarını xüsusi bir şövqlə oxumağı, onlara yeni çalarlar əlavə etməyi mükəmməl bacarırdı. Onun öz ifasında xalq mahnıları kimi təqdim olunan "Qəmərim", "Şuşanın dağları", "Ay gözəl", "Məndən gen gəzmə", "Al yanağında", "Dağlarda çiçək", "Gözəl yarım", "Ölürəm, a Ceyran bala" mahnıları gənc xanəndələr nəsli üşün böyük örnəkdir desək yanılmarıq. Məhz, həmin mahnıları ustad xanəndə oxuyarkən qaval sənətinə dair peşəkar ifaçılığını da tamaşaçılara xüsusilə nümyaiş etdirərdi. O, həmçinin simfonik orkestrin müşayiəti ilə ilk dəfə simfonik muğamlarda solo hissini də ozü oxuyardı. Bu fakt bir daha Xan Şuşinskinin gözəl ritm duyumundan və professionallığından xəbər verir.

Digər mahir qaval ifaçısı kimi tanınan məşhur xanəndə Alim Qasımovun da muğam sənətində xüsusi rolu vardır. Ümumiyyətlə, A.Qasımovun bir xanəndə kimi səsində bəmdən zilə - hər inclikləri vardır. Bəzən istedadlı sənətkarımız konsert zamanı elə not tutur ki, tar ifaçısı həmin notu axtarmağa çalışır. A.Qasımov həmin notları zarafatyana - eşq notları, fəza notları adlandırsa da, onun sənətdəki qeyri-adi mövqeyi göz önündədir. Xanəndə peşəkarcasına, böyük ustalıqla qaval ifa edir və onun bu bacarığı geniş auditoriya kütləsində xüsusi bir rəğbətlə qarşılanır.

Lakin elə qaval ifaçıları da vardır ki, özləri xanəndə olmasalar da, gözəl muğam biliciləridilər. Məsələn, məşhur, virtuoz qaval ifaçısı Əzizağa Nəcəfzadə muğam sənətini o qədər yüksək bilirmiş ki, hətta hər hansısa tarzən və xanəndə onun yanında muğamın incəliklərindən söz açmağa belə cəsarət etməzdir. O, musiqi aləmində bir çox xalq ritmlərinin dəfdə solo ifaçısı kimi tanınır. Əzizağa Nəcəfzadə uzun illər Azərbaycan Dövlət Filarmoniyasının mahnı və rəqs ansamblını qaval ifaçısı olmuşdur.

Eləcə də, Əzizağa Nəcəfzadənin sələfi sayılan Mahmud Salah kimi məşhur qaval ifaçısının adını xüsusilə qeyd edə bilərik. Belə ki, Mahmud Salah çağdaş qaval ifaçılıq sənətində öz metodoloji baxışları, təcrübələri ilə bu sənətin inkişafında mühüm rol oynamışdır. Mahmud Salahın qaval ifaçılıq sənətinə dair gətirdiyi yenilikləri həmçinin qeyd etmək mütləqdir. O, həm tədqiqatçıdır, həm gözəl müəllim, həm də qaval-dəf ifaçısdır. M.Salah eləcə də "Qədim Şərq" muğam qrupunun da yaradıcısı

və bədii rəhbəridir. M.Salah qaval alətinin ifaçılıq texnikası və vacib cəhətlərini pedaqoji cəhətdən tələbələrinə - xanəndələrə hər zaman mükəmməl öyrədir. Çünki qaval mahnı, təsnif, diringi, dəramәd, rəng, rəqs ritmlərini, vəznilərini, ölçüləri dəqiq saxlayır.Qaval həm də ilhamverici alət kimi xanəndələrə xidmət edir. Xanəndələrin əsasən qavalı qulaqlarına yaxınlaşdırarkən onu çalaraq alətin titrəyişindən alınan rezonans ilhamlandırır.



Əzizağa Nəcəfzadə



Mahmud Salah

Bir maraqlı araqlı fakti da qeyd edək ki, qaval ifaçılıq sənətinin köklərini bəzən "Qəvalli"("Kavalli") sənəti ilə də müqayisə edilir. "Qəvvalli" – yəni "söz musiqisi" deməkdir. Ərəbcədən "gözəl danışan", "danışqan" mənasını daşıyır. "Qəvalli" həm də sufi poeziyası əsasında ifa olanun janrdır. 700 ildən artıq bu janrın yaranma tarixi vardır. Əsasən Pakistan və Hindistanda yayılıb. Qədimdə bu janr dini ritualların, ayinlərin həyata keçirilməsi ilə bağlı olaraq ifa edilirdi. Bu ayini əsasən muğənni oxuyur və onu tabl (təbil) və mridanq (nağara) müşayiət edir. Bu janrın əsasını sufi şairi Əmir Xosrov Dəhləvi (XIII) qoyub. "Qəvvali" həmçinin özünəməxsus həm də musiqi kompozisiya quruluşuna malikdir [9, s. 207].

1."Həmd" – Allaha dua ilə başlayır

2. "Nəət" – Məhəmməd (s.ə.s) Peyğəmbərə müraciət edilir

3. "Mankabat" – şiə əqidəsinə görə İmam Əli, sünni təriqətinə görə isə Sufilər yad edilir..

4. "Qəzəl"

5. "Kafi" – Nəfəsdir...Sufi şeirlərindən biri üstündə oxunan havadır.

6. "Vay" – "Kafi" şeir formasını xatırladan lirik janrdır

7. "Minəcat" – "Allaha təvəkkül" deməkdir. Şeir mətnləri farsca olur. Bu janrın əsasını C.Rumi qoymuşdur.

Bu gün Dünya arenasında "Muğam və Qəvvali", "Qəvvalli-flamenko", "Qəvvali-qospel", orkestrilləşdirilmiş Qəvvalli, "Caz-Qəvvalli"lər, "Qəvvali-rəqslər" vardır. Eləcə də Azərbaycanda məşhur "Qaval" rəqsi yer alır. Bu zaman belə bir sual yaranır ki, qaval alətinin rolu hər iki qütbdə eyndir və ümumiyyətlə qaval milli alətlər sırasına daxildir ya ümumən ortaq şərq musiqi alətidir ? Bu sualın maraqlı cavabını da mahir qaval ifaçısı Mahmud Salah öz müsahibələrindən birində izah etmişdir: *"Qaval sırf milli alətdir. Bu alət bizə orta əsrlərdən gəlib və sırf xanəndəlik sənəti ilə bağlıdır. Qaval əslində dəf alətinin növlərindən biridir. Sadəcə, olaraq bir var sırf dəf çalan, bir də var xanəndənin ifa etdiyi qaval. Əgər xanəndədirsə, qaval mütləq onun əlində olmalıdır. Bu alətin tarixi sufiliklə bağlıdır. Sufilikdə dərvişlərin qəvvallar adlanan qismi mütləq mənada əllərində dəf tutardılar. Onlar dəf çala-çala Allaha zikr edirdilər. Sufilikdən üzü bu yana qəvval sözü xanəndəyə yox, onların tutduğu alətə aid edilib. Səbəb də onların Allaha, xanəndələrin isə bəndəyə zikr etməsi ilə bağlı idi"* [13].

Bu sitata əsaslanaraq qeyd edək ki, bizim tanıdığımız "qaval" alətinin yaranma tarixi ümumən sufilik təriqətindən qaynaqlanır. Dilimizdə "qaval", "qəvvali", "qaval daşı" sözləri sanki eyni kökdən, eyni mənşədən qaynaqlanır, lakin müxtəlif funksiyalara malikdilər. Məhz, məqsədimiz də, onları bir-birindən elmi cəhətdən ayırmaq və qarışıq salmamaqdır.

"Qəvvali" artıq qeyd etdiyimiz kimi hindistanda sufiliklə bağlı musiqili-poetik janrdır. "Qəvvali" Hindistanda, Pakistanda yaranan sufiliklə bağlı musiqili –poetik mistik janrdır və əsasən ifaçının qavalda deyil, təbildə çalması vacibdir. Bu gün, "Muğam və Qəvvali", "Qəvvalli-flamenko", orkestrilləşdirilmiş "Qəvvalli", "Caz-Qəvvalli"lər əsasən hind musiqi mədəniyyəti ilə

bağlıdır və buarada muğam dedikdə hind raqaları nəzərdə tutulur. Lakin, milli muğamlarımızın da "qəvvali" janrı kimi müxtəlif sintezləri mövcuddur. Məsələm, muğam-pop, muğam-simfoniya, muğam-cazz, etnomuğam, muğam-sufizm, muğam-rok, muğam-flamenko, muğam-poppuri, muğam-etrada və s. Hətta qeyd edə bilərik ki, F.Əmirovun, eləcə də Niyazinin ("Rast"), S.Ələsgərovun ("Bayatı-Şiraz"), T.Bakixanovun ("Nəva", "Hümayun", "Rahab", "Dügah", "Şahnaz") simfonik muğamları, A.Zeynallının simfonik miniatürləri, A.Məlikovun ("Muğamsayağı"), A.Əlizadənin ("Muğamsayağı"), V.Adıgözəlovun ("Segah") simfoniyaları, V.Mustafazadənin "muğam-caz" (etnocaz) kompozisiyaları, F.Əlizadənin "muğam-falmenko" əsərləri muğam ilə müxtəlif janrların sintezi əsasında yazılmışdır. Eləcə də muğam və estrada janrının sintezinə dair ən maraqlı nümunə kimi "Eurovision" mahnı-müsabiqəsində (2012) müğənni Səbinə Babayevanın Alim Qasımovla birlikdə oxuduqları "When the music dies" kompozisiyasını qeyd edə bilərik.

Ümumilikdə "qəvvali" və "qaval" sözlərinin izahından belə qənaətə gəlirik ki, "Qəvvali" musiqili-potik janrdır və hind raqaları (muğamları ilə) sıx bağlıdır. "Qaval" isə xanəndənin əlində tutduğu dəf aləti kimi nəzərdə tutulur. Qaval aləti "xalq ritmi"-nin simvolik təzahürüdür. Qaval həm də, milli alətdir və ümumi görünüşündən və daşıdığı funksiyaya görə yetərincə seçilir. Qaval muğam ifaçılarının-xanəndələrin ritmik məsələlərini tənzimləyir. Qaval sənəti ilə bağlı "Qaval" adlı xalq rəqsi də mövcuddur ki, əlində qaval tutan rəqqasələr tərəfindən ifa olunur. Eləcə də, "Qaval" rəqsinin yeni formatda təqdimatı "Natiq" rimt qrupu tərəfindən verilmişdir. "Natiq" ritm qrupu nağara üzərində öz mahir ifasını təqdim edərək, "qaval" kimi tanınan dəf alətini deyil, nağara alətini geniş auditoriyaya təqdim etmişdilər.

Bu mövzuya dair Mahmud Salahın başqa bir sitatına nəzər yetirək: *"Muğam dəstələrində qaval ifaçısı olmalıdır və qaval ifaçısı muğamları gözəl bilmə qabiliyyəti ilə də fərqlənməlidir. Niyə? Bir xanəndə efirdə bir təsnif bir mahnı oxuyacaqsa özünü müşahidə edə bilər. Böyük konsertdirsə, muğam dəstgahı oxuna bilər, xanəndə əziyyət çəkməsin deyə, qavalçı gəlir. Çünki xanəndə nəfəs salır, ağciyərləri işləyir. Oxusa, təngnəfəsliyə gətirib çıxarır. Bu ənənə var idi. Qaval ifaçıları xanəndənin yanında otururdu. Biz deyəndə ki, Azərbaycan muğam üçlüyü nə başa düşürük? Qaval aləti, tar və kaman aləti. Bir neçə yüz illikdə 15-20 tar və kamança çalan olursa, amma qaval ifaçıları bir əsrdə bir ya iki, ya da üç olur. Bu indi belə deyil, hər zaman belə olub"* [11].

Bu fikrə yaxın Rafael Hüseynov da radio verlişlərinin birin də qeyd etmişidir ki*, "Azərbaycan torpağı gözəl pianoçular, tarzənlər, qarmon ifaçıları yetişdirib. Ancaq dəfçalanlar yüz ildə bir və ya iki dəfə yetişir"*[6, s.23]. Həqiqətən də bu belədir. Qaval ifaçılıq sənəti bu gün məxsusi yerə malikdir. Qədimdə ayrıca olaraq muğam ifası zamanı ifaçıları olub. Zamanla qaval ifaçılığı məsələləri xanəndələrin çiyninə düşür. Lakin, xanəndələr bəzən bu vacib sənətin öhdəsindən gələ bilmirlər. Çünki bir çox xanəndələrin ritmi zəifdir və qavalı görüntü xatirinə əldə tuturlar. Xüsusilə, xanəndə muğam dəstgahı ifa etdikdə çox enerji itirir, qavalda düzgün, dəqiq ritmik ifa məsələlərinin fərqinə varmır, ritmi tənzimləmək kimi çətinliklər yaranır və daha çox tar alətinin ifaçısı ona ritmdən çıxmamaq üçün müəyyən ifaçılıq üsulları ilə işarə edir.

**Nəticə**

Təbii ki, belə məsələlər həm tar ifaçısının işini artırır, həm də xanəndəni narahat edir. Buna görə də muğam üçlüyünün tərkibinə ayrıca ritm ifaçılarının daxil olması nəyin ki, vacibdir bəzən isə qaçılmazdır. Zənnimizcə qaval ifaçılığının tədrisi məsələləri daima aktual olan mövzulardan biri kimi qərar almalıdır.

## ƏDƏBİYYAT

1.Bədəlova S. Dəfdə döyünən ürək. Qobustan, 2011, №4, s.61-64
2.Dadaşzadə, Z.A. Azərbaycan simfoniyası (1960-1980-cı illər). Dərs vəsaiti / – Bakı: Ziya, – 2012. – 240 s.
3.İsmayılov, M.S. Azərbaycan xalq musiqisinin məqam və muğam nəzəriyyəsinə dair elmi-metodik oçerklər / M.C.İsmayılov. – Bakı: Elm, –1991. – 118 s.
4.Muğam ensiklopediyası / – Bakı: H.Əliyev Fondu, – 2010. – 216 s.
5.Xaliqzadə F.X. "Üzeyir Hacıbəylinin Azərbaycan muğamlarının emossional təsir xüsusiyyətləri

barədə. "Muğam aləmi"- VI Beynəlxalq Muğam Simpoziumunun materialları. B:, 2023, s.200-206
6.Xalq artistlərinin müəllimi. Kaspi.- 2007.- 15-17 dekabr.- S. 22-23.
7.Zöhrabov, R.F. Azərbaycan muğamları / R.F.Zöhrabov. – Bakı: Təhsil, – 2013. – 336 s.
8.Гусейнова Л.Ш. Вопросы интрепретации в исполнительстве мугама: традиции и современность. Матермалы VI Международного научного симпозиума «Мир Мугама». Б.:, Шерг-Герб, 2023, с.214-119
9.Каромат Д.А. Жанр Каввали в пространстве раги и макама. Матермалы VI Международного научного симпозиума «Мир Мугама». Б.:, Шерг-Герб, с. 2023, 207-213 (372 с)
10.https://turkmedeniyyeti.wordpress.com/2014/09/19/qavalin-nadir-ifacisi/
11.Https://moderator.az/az/read/403601/
12.http://konservatoriya.az/?p=1145
13.https://www.anl.az/down/medeniyyet2007/dekabr/medeniyyet2007_dekabr_235.htm
14.https://azkurs.org/calgi-aletleri-dunyani-valeh-edir.html?page=8
15.https://azertag.az/xeber/azerbaycanli_istirakchilarin_qaval_reqsi_alqislarla_qarsilanib_video-1206878
16.https://www.anl.az/down/meqale/525/2012/sentyabr/261578.htm https://intangible.az/front/az/aboutExample/20244
17.https://www.youtube.com/watch?v=43-re0CDyco
18.https://www.youtube.com/watch?v=dCQL6yhTGAM

***Azərbaycan Milli Konservatoriyasının doktorantı,***
***Azərbaycan Dövlət Akademik Opera Balet Teatrının solisti,***
***Respublika İncəsənət Gimnaziyasının xanəndəlik ixtisası üzrə müəllimi***
***AMK-nın "Muğam-xanəndə" kafedrasının müəllimi***

**Ayten Maharramova**

**THE ROLE OF MASTER ARTISTS IN KAVAL PERFORMING ARTS**

The article talks about the role of master artists in the effective development of the art of playing the kaval. Professional Kaval players and their contribution to the art of mugham are also mentioned.
**Keywords:** *Kaval, tambourine, Kaval dance, singer, art, Khan Shushinsky, Alim Gasimov, Azizaga Najafzadeh, Mahmoud Salah*

**Айтен Магеррамова**

**РОЛЬ МАСТЕРОВ В ИСПОЛНИТЕЛЬСКОМ ИСКУССТВЕ КАВАЛА**

В статье говорится о роли мастеров-художников в эффективном развитии искусства игры на kавале. Также упоминаются профессиональные игроки на kавале и их вклад в искусство мугама
**Ключевые слова:** *Каваль, бубен, танец Кавал, певец, искусство, Хан Шушинский, Алим Гасымов, Азизага Наджафзаде, Махмуд Салах*

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmova tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 11.05.2024**
**Son daxilolma tarixi:21.06.2024**